**«Yunayted Kredit Bank» Açıq Səhmdar Cəmiyyətinin**

**Riskləri İdarəetmə komitəsi haqqında**

**ƏSASNAMƏ**

## I.Ümumi müddəalar

1.1.Bu Əsasnamə «Bank!ar haqqında», «Azərbaycan Respublikasının Milli Bankı haqqında»Azərbaycan Respublikası Qanunlanna,Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına Azərbaycan Respublikası Milli Bankının təlimat və qaydalarına,habelə Bank Nəzarəti üzrə Bazel Komitəsinin «Kredit təşkilatlarında korporativ idarəetmənin təkmilləşdirilməsi)) tövsiyyələrinə uyğun olaraq hazırianmış və «Yunayted Kredit Bank»AçıqSəhmdar Cəmiyyətində Riskləri İdarəetmə Komitəsinin (bundan sonra «Komitə» adlanacaq) fəaliyyətinin əsas prinsiplərini müəyyən edir.

## 2.Komitənin məqsədi

2.1.Bankın filial şəbəkəsinin sayının 3-dən artıq olması nəzərə aiınaraq digər risklərin idarə edilməsi məqsədilə Bankda mövcud olan daxili komitələrin fəaliyyətlərini əlaqələndirmək komitənin əsas məqsədlərindən birini təşkil edir.

## 3.Komitənin hüquq və vəzifələri

3.1.Komitənin əsas hüquqlan aşağıdakılardan ibarətdir:

3.li.Müşahidə Şurasında təsdiq ediimək üçün müxtəlif risk növləri üzrə müvafiq limitlərin müəyyən edilməsi barədə İdarə Heyətinə tövsiyyəiər etmək;

3.1.2.Bankın hər bir struktur bölməsi üzrə cəmi risk limitiərinin maksimum məbləğinin müəyyən edilməsində İdarə Heyətinə tövsiyyələr etmək;

3.i.3.Müşahidə Şurasının **hər** bir rüblük iclasında əsas risk sahələri olan kredit riski,bazar riski.faiz riski,xarici valyuta riski.səhm və əmtəə riski, likvidlik riski,əməliyyat riski və mövcucl olan digər risklər haqqında hesabat verilməsi üçün İdarə Heyətinə tövsiyyələr etmək; 3.1.4.Müşahidə Şurasının dəvəti ilə onun iclaslarında iştirak etmək;

**3.2.Komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:**

3.2.1. Digər risklərin idarə edilməsini həyata keçirmək və mövcud risklərin idarə **edilməsi** üzrə daxili komitələrin fəaliyyətini əlaqələndirmək;

3.2.2. Risklərin **idarə** edilməsi qaydalarını hazırlamaq jdarə Heyəti ilə razılaşdırdıqdan sonra təsdiq olunmaq üçün Müşahidə Şurasına təqdim etmək;

3.2.3. Risklərin idarə edilməsi qaydalarını vaxtaşın qiymətləndirmək və tələb olunduqda yeniləşdirmək;

3.2.4. Risklərin idarə edilməsi prosesini əməliyyat cəhətdən daim dəstəkləmək və bunun üçün bankın müvafiq struktur bölməsinin və ya əməkdaşlannın müəyyən edilməsini təmin etmək;

3.2.5.Struktur bölmələrin rəhbərləri ilə birlikdə mütəmadi ofaraq risk limitlərinin təhlilini aparmaq;

3.2.6.Mİuşahidə Şurasının qarşısında hesabat vermək.

## 4.Komitənin strukturu və idarə edilməsi

4.i.Komitə 5 nəfərdən ibarət olmaqla,Müşahidə Şurası tərəfindən formalaşdınlır və ona hesabat verir;

4.2. Komitənin üzvləri bankın fəaliyyəti nəticəsində yaranan risklər haqqında məlumata və biliyə **malik** olan İdarə Heyətinin üzvlərindən və bankın struktur vahidlərinin rəhbərlərindən təşkil olunur;

4.3.Komitəyə rəhbərliyi İdarə Heyətinin üzvlərindən biri həyata keçirir;

4.4.Komitənin iclaslan ayda 2 dəfədən az olmamaq şərtilə keçirilir və iclasın qəbul etdiyi qərarlar protokollarla rəsmiləşdirilir;

4.5.Komitənin iclaslarında kvorumun alınması üçün 4 üzvünün iştirakı vacibdir.Məsələlərin müzakirəsi zamanı aidiyyatı mütəxəssislər iclasa dəvət edilə bilər Jakin səs vermədə iştirak edə bilməzlər;

4.6.Komitənin üzvləri onlara veriimş səlahiyyət daxilində qərarlar qəbul edir və onların icrasına nəzarəti həyata keçirirlər;

## 5. Hesabat

5.1.Komitə Müşahidə Şurasının qarşısında aşağıdakı məsələrlə bağlı hesabat verir:

5.1.1 Jri risklər və onların azaldılması üzrə təkliflər;

5.i.2.Daxili qaydalarla və qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlərin (məsələn:

limitlərin) pozulması halları barədə məlumat və onların aradan qaldırılması üzrə təkliflər;

5,1,3.Maliyyə alətlərinin növü, ödəmə müddətfəri, habelə dəyər və gəlirlik kateqoriyaları üzrə

investisiyalann təsnifləndirilməsi barədə məlumat;

5.1.4.İnvestisiyalar üzrə itkilər, habelə onların balansdan silinməsi və dəyərinin

qaytarılması barədə hesabat;

5.ı.5.Əsas vəsaitlər üzrə məlumat və onların cari ildə maliyyə komponenti kimi saxlanılması,

yaxud satılması barədə hesabat;

5.i.6.Ödənilməmiş borclar müqabilində balansa göürülmüş və ya balansa götürüfəcək əmlak

və onların satılması üçün həyata keçirilən tədbirlər barədə hesabat.

## 6.Digər məsələlər

6.1.Komitənin qərarları sadə səs çoxluğu ilə qəbul edilir.Səsvermədə bitərəf qalmağa icazə verilmir.Səslərin sayı bərabər olduqda komitə sədrinin tərəfdar çıxdığı qərar qəbu! edilmiş sayılır;

6.2.Komitənin iclaslan protokollarla rəsmiləşdirilir.Protokollar iciasın katibi tərəfindən tərtib edilir,Komitənin üzvləri və katib tərəfindən imzalanırvə müvafiq qaydada qeydiyyata alınır.

## 7.Yekun müddəalar

7.1.Bu Əsasnamə Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir; 7,2.Əsasnaməyə əlavə və dəyişiliklər Müşahidə Şurasının razılığı ilə edilə bilər.